# Qəbələ: ümumrayon Novruz şənlikləri

(Əvvəli 2-ci səhifədə).





Martın 20-də «Qafqaz» Sport otelin qarşısındakı meydança əsl bayramsayağı bəzədilmişdi. Qəbələnin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları, müxtəlif qəsəbə və kəndlərdə hazırlanmış sənətkarlıq nümunələri, idmançıların məharətləri, ruzi-bərəkətli bayram süfrələri, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri bayram şənliyinə xüsusi çalar qatırdı.

İncəsənət ustaları, meyxanaçılar, kəndirbazlar, qurşaq tutanlar, nağaraçılar xalqımızın çox-çox qədimdən süzülüb gələn adət-ənənələrini nümayiş etdirdilər.

Rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev və qonaqlar, ictimaiyyətin nümayəndələri Novruz şənliklərində iştirak etmək üçün «Qafqaz» Sport otelin qarşısındakı meydana gəldilər.

Buraya toplaşan minlərlə bayram iştirakçısı rayonumuzun rəhbərini və qonaqları alqışlarla qarşıladı. Milli geyimli qızlar Qəbələ rayonunun rəhbərinə bayram xonçaları təqdim etdilər.

Dədə Qorqud və Bahar qız xalqımızın qədim minik vasitəsi olan milli dekorasiya ilə bəzədilmiş faytondan düşərək meydana daxil olur, şənlik tştirakçılarını salamlayırlar. Dədə Qorqud Yeni ildə xalqımıza, rayon əhalisinə xeyir-dua verərək, bahar bayramının onlara ruzi-bərəkət gətirməsini arzuladı. Milli geyimli uşaqlar meydanda rəqs edirdilər, incəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram iştirakçılarında xoş ovqat doğururdu.



Sonra Novruzun personajları Kosa və Keçəlin bayram lətifələri, rəqsləri, nümayiş etdirdikləri bir-birindən gözəl və maraqlı səhnələr davam edir.

Bayram şənliyinin aparıcısı bayram tədbirinin başlandığını elan etdi və təbrik üçün sözü rayon icra hakimiyyətinin başçısı, hörmətli Səbuhi Abdullayevə verdi. O, bayram şənliyinə toplaşanları və bütün Qəbələ əhalisini Novruz bayramı münasibətilə ürəkdən təbrik etdi, hər bir qəbələli vətəndaşa bu əziz bayram günlərində xoşbəxtlik, cansağlığı arzuladı. O, qeyd etdi ki, Novruz bizim sevimli bayramımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu bayramı qeyd etmiş, bu bayramı öz qəlbində yaşatmışdır. Biz 22 ildir ki, bu bayramı dövlət səviyyəsində qeyd edirik. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Novruz bayramını çox geniş şəkildə, rəsmi dövlət bayramı kimi qeyd edir. Son illərdə biz Novruz bayramını bir neçə gün ərzində qeyd edirik. Mən əminəm ki, hər bir qəbələli ailəsi bu günlərdən səmərəli şəkildə istifadə edəcək, hər bir ailə bu gözəl bayramı bir yerdə qeyd edəcəkdir.

Hörmətli başçı daha sonra qeyd etdi ki, bu gün Qəbələ sözün əsl mənasında öz inkişaf dövrünü yaşayır, rayonumuz sürətlə irəliyə gedir. Qəbələnin bu günkü reallıqlarına nəzər salaraq görmək olar ki, rayonda çox böyük işlər görülüb. İstər sənaye, istər aqrar sahə, istərsə də təhsil, səhiyyə, mədəniyyət müəssisələri inkişaf edir, tikinti-quruculuq işləri sürətlənir.



Biz elə etməliyik ki, rayonun qarşısında duran bütün vəzifələr öz həllini tapsın, insanlar daha da yaxşı yaşasınlar. Hazırda əldə etdiyimiz uğurlarla kifayətlənməməliyik. Əldə etdiyimiz uğurlar, sadəcə bizim üçün gələcək addımların atılması üzrə bir stimul olmalıdır. Həyat yerində durmur, rayonun qarşısına yeni vəzifələr çıxır, yeni çağırışlarla üzləşirik və biz bunların hamısına hazır olmalıyıq.

Bu əziz gündə, hamımız üçün əziz Novruz bayramı günləri münasibətilə bir daha bütün Qəbələ xalqını ürəkdən təbrik etmək istəyirəm, hər bir Qəbələ vətəndaşına cansağlığı, xoşbəxtlik və yeni uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

Sonra rayonumuzun rəhbəri Novruz tonqalını alovlandırdı.

Yenə çal-çağır, Bum mədəniyyət evinin etnoqrafik «Zopu-zopu» folklor ansamblı, rayon mədəniyyət evinin, incəsənət məktəbinin musiqi kollektivləri, uşaq yaradıcılıq mərkəzinin rəqs qrupu, müğənnilər, Nic mədəniyyət evinin folklor ansamblı, Vəndam qəsəbə, Hacıalılı və digər kənd mədəniyyət evlərinin musiqiçiləri bayram iştirakçılarına xoş əhval-ruhiyyə bəxş etdilər.

Bayram şənliyində iştirak edən başçı və qonaqlar ayrı-ayrı kollektivlərə yaxınlaşaraq onların bayramlarını təbrik etdi, həmçinin gənc rəssamların, el sənətkarlarının əl işlərinə tamaşa etdilər. Başçı Qəbələ torpağında yetişdirilmiş məhsulların bayram şənliyi çərçivəsində təşkil edilmiş sərgisi ilə tanış oldu.

Bayram süfrələrini bəzəyən şəkərbura, paxlava, şorqoğal, müxtəlif növ şirələr, meyvələr, meyvə quruları, boyanmış yumurtalar, şirniyyatlar və Novruzun rəmzi olan səmənilər, digər naznemətlər bolluqdan və firavanlıqdan xəbər verirdi.

Ümumiyyətlə, bayram şənliyi incəsənət ustalarının və el sənətkarlarının ifasında rəngarəng konsert proqramı ilə axşamdan xeyli keçənədək davam etdi.

**Aslan CƏLİLOV.**

**Fotolar S. Umuyevindir.**